## ◆ P o e z i y a



*Vəliyulla NOVRUZ*

**OLMADI**

Dərdimdən yıxıldım, ana,
Tutmağa bir əl olmadı.
Həsrətdən sıxıldım, ana,
Danışmağa dil olmadı.

Seyr elədim Haçadağı,
Ağlar gördüm Xanbulağı.
Çox bəslədim bağça-bağı,
Üzməyə bir gül olmadı.

Kim qarğıdı axı bizi,
Oda yaxdı qəlbimizi.
Duman aldı yolu, izi,
Əsməyə bir yel olmadı.

Göylər qara geyindilər,
Boz buludlar öyündülər.
Yağış yağdı, sevindilər,
Çaylar daşıb sel olmadı.

Dünya necə gör qarışdı,
Qismətilə kim barışdı?
Pərdələrdə sim alışdı,
Çalmağa bir tel olmadı.

Qırıb çatdılar meşəni,
Durub satdılar meşəni,
Oda atdılar meşəni,
Yerində bir kol olmadı.

Gecə-gündüz hey yazdılar,
Bəndi-bərəni qazdılar.
Axırda yolun azdılar,
Keçməyə bir yol olmadı.

## BİZİ

Nağıllaşdıq nağıl kimi,
Şirinləşdik noğul kimi.
Yurda layiq oğul kimi
Böyütdü nənələr bizi.

Məskən saldıq bu dağlarda,
Sərinləndik yaylaqlarda.
Yuva saldıq budaqlarda
Yellədi nənnilər bizi.

İllər ötdü, yaşa dolduq,
Qocaldıqca uşaq olduq.
Çiçək kimi bir gün solduq,
Duymadı nəvələr bizi.

Namərd yükün çatıb getdi,
Torpağını satıb getdi,
Səhralarda atıb getdi
Sarvansız dəvələr bizi.

Yollarını yağı kəssə,
Vuruşmağa qılınc istə.
Koroğlutək düşmən üstə
Hoyladı dədələr bizi.

* * *

Səninlə hər axşam danışıram mən,
Ruhunu oxşayan çiçək dilində.
Yanıb öz içimdə alışıram mən,
Adım da düşməyir, göyçək, dilindən.

Tale də üzünə gülmür nə vaxtdı,
Elə bil dəryada qərq olub gəmin.

Bir gün bu sevdanın açılar baxtı,
Sevincə bürünər kədərin, qəmin.

Bu da bir ömürdü, yaşayırıq biz,
Alıb öz qoynuna sizi bu şəhər.
Hələ dərdimizi daşıyırıq biz,
Mənim boğazıma tıxanıb qəhər.

Hər gecə Tanrıya dua edirəm,
Haqqın dərgahına diz çökürəm mən.
Nəmli gözlərimi sıxıb gedirəm,
Bir Allah bilir ki, nə çəkirəm mən.

Elə bil qəlbimi çəkiblər dara,
Ruhumu nə yaman sıxır barılar.
Özüm də bilmirəm üz tutum hara,
Hönkürsəm, göylərin bağrı yarılar.

Olub-keçənləri unut bir anlıq,
Günəş qürub edər batanda, qızım.
Daha gözlərimə çökür qaranlıq,
Sanma ki, günahkar atandı, qızım.

Əzəldən dünyanın işi belədi,
Bəzən bir damlada boğulur insan.
Fələyin qurduğu bu bir tələdi,
Ancaq öz hökmünü verir hər zaman.

**OXUCULARIN NƏZƏRİNƏ!**
**2020-ci İL ÜÇÜN**
**“AZƏRBAYCAN”**
**jurnalına abunə yazılışı davam edir.**
**“AZƏRBAYCAN”**
**jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik,**
**illik abunə qiyməti 18 manatdır.**
**İNDEKS: 76300**